# Xocalı soyqırımı şəhidlərinin xatirəsi silsilə tədbirlərlə anılıb

*Müxtəlif ölkələrdə Xocalı soyqırımının 33-cü ildönümü ehtiramla və dərin kədər hissi ilə qeyd olunub. Ermənistanın dinc azərbaycanlı sakinlərə qarşı törətdiyi kütləvi qırğın pislənilib və Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyi vurğulanıb. Anım tədbirlərində Azərbaycan dövlətinin öz gücü ilə Xocalıda aparılan geniş quruculuqdan, yerli sakinlərin doğma yurdlarına təhlükəsiz qayıdışından bəhs olunub.*

## Türkiyə




Azərbaycanın Ankaradakı səfirliyi yanında Azərbaycan Mədəniyyət Mərkəzi və Kızılcahamam bələdiyyəsinin birgə təşkilatçılığı ilə Kızılcahamam rayonunda yerləşən Xocalı Anım Muzeyində Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbirdə diplomatlar, yerli bələdiyyə rəhbərliyi, hərbi məktəb kursantları, yerli təhsil ocaqlarının şagird və müəllimləri və hər iki qardaş ölkənin ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları Xocalı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Kızılcahamam bələdiyyəsinin rəhbəri Süleyman Acar vurğulayıb ki, Xocalıda ermənilər tərəfindən törədilən soyqırımı unudulmamalıdır. Keçmişini unudan şəxs gələcəyini itirmiş olur. Tarixin faciəvi hadisələrini xatırlamaq və gələcək nəsillərə ötürmək vacibdir. Bu, bizim borcumuzdur.

Azərbaycanın Ankaradakı səfirliyinin müşaviri Eldar Əliyev tarixin müxtəlif dövrlərində xalqımıza qarşı törədilən cinayətlər barədə ətraflı məlumat verib. O, azərbaycanlılara qarşı planlı şəkildə aparılan etnik təmizləmə siyasətindən, o cümlədən Qərbi azərbaycanlıların deportasiyasından danışıb: "Türkiyə və Azərbaycanın hər bir sakini nəinki Xocalını, hətta keçən əsrin əvvəllərində Anadolu və Azərbaycanda törədilmiş qanlı cinayətləri, erməni terrorizmini və 1915-ci il hadisələri ətrafında aparılan yalançı təbliğatı da unutmamalıdır".

Sonra məktəblilər Xocalı soyqırımına aid şeirlər oxuyublar.

Tədbir iştirakçıları daha sonra Xocalı Anım Muzeyini ziyarət ediblər. Burada onlara Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi dövrdə törətdiyi cinayətlər, o cümlədən 1992-ci ilin fevralında Xocalıda baş vermiş qanlı hadisələr barədə məlumatlar verilib.

Qeyd edək ki, muzeyin "Xocalıya ədalət!" kampaniyasına dair guşəsində Xocalı soyqırımını tanıyan ölkələrin siyahısı da yer alıb. Muzeydə, həmçinin ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərə dair kitabların toplandığı kiçik kitabxana da fəaliyyət göstərir.

* * *



Ankarada daha bir tədbir Qazi Universitetinin konfrans salonunda baş tutub. "Bitməyən ağrı: Xocalı Soyqırımı" adlı beynəlxalq simpoziumda 1992-ci ildə Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı soyqırımı, onun bəşər tarixində yeri və Türkiyə-Azərbaycan münasibətlərinə təsirləri müzakirə edilib.

Tədbirdə Qazi Universitetinin Texnologiya fakültəsinin dekanı professor Musa Atar, millət vəkilləri Tənzilə Rüstəmxanlı, Səbinə Salmanova, Qazi Universitetinin professor-akademik heyəti və tələbələr iştirak ediblər. Professor Musa Atar vurğulayıb ki, Xocalı soyqırımı təkcə türk millətinə deyil, dünyaya qarşı törədilmiş cinayətdir. Biz Xocalını unutmamışıq və əsla unutmayacağıq. Tənzilə Rüstəmxanlı çıxışında qeyd edib ki, Xocalı soyqırımı Azərbaycan türklərinin və türk dünyasının ən ağrılı yeridir. Türklərin sırf türk olduqlarına görə etnik təmizləməyə məruz qaldıqları bu soyqırımı dünyanın gözü qarşısında törədilib və dünya hələ də bu qəddarlıq qarşısında susur. Millət vəkili Səbinə Salmanova deyib ki, biz ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin beynəlxalq aləmdə soyqırımı kimi tanınmasını istəyir və bunun üçün mübarizə aparırıq. O, Xocalının təkcə Azərbaycan və türk xalqları üçün deyil, bütün bəşəriyyət üçün bunun insanlığa yaraşmayan vəhşilik aktı olduğunu diqqətə çatdırıb.

Tarixçi-professor Kemal Çiçek çıxışında vurğulayıb ki, Ermənistan torpaqları əslində türk torpaqları olub. Bunu kimsə dana bilməz. Tarixi faktlar bunun əyani sübutudur. Rusiya yoxdan Ermənistanda yeni bir respublika yaradıb. Çox təəssüflər olsun ki, ruslar bu torpaqları erməniləşdirmək üçün uzunmüddətli planlar qurublar.

Xocalı soyqırımı bütün türk dünyasının yaddaşından silinməməlidir.

Türkiyə İnternet və Media Dərnəyinin (TİMBİR) sədri Süleyman Başa, Birlik Xəbər Agentliyinin (BHA) baş direktoru Muhammet Kaçar və BHA-nın baş redaktoru Orhan Kamal Erkılıç Xocalı soyqırımının unudulmamasının və beynəlxalq miqyasda daha çox gündəmə gətirilməsinin vacibliyini vurğulayıblar.

* * *



Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyası və Türkiyə-Azərbaycan Cəmiyyətinin İğdır şöbəsinin təşəbbüsü ilə İğdır şəhərindəki Heydər Əliyev adına liseydə Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb.

Tədbirdə liseyin müəllim və şagirdləri, hər iki ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbir iştirakçıları Xocalı şəhərində erməni cəlladlarının qurbanı olmuş yüzlərlə dinc sakinin xatirəsini ehtiramla yad ediblər.

1992-ci ilin fevralında baş vermiş faciəli hadisələrdən bəhs edən videoçarx nümayiş etdirilib.

Anım mərasimində çıxış edən Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini Serdar Ünsal Azərbaycanın Qarabağ bölgəsində törədilən soyqırımı aktını unutmamağa çağırıb. O deyib: "Təəssüf ki, dünya ictimaiyyəti bəşəriyyət tarixinin ən qaranlıq səhifələrindən birinə çevrilmiş Xocalıda baş verən qanlı hadisələrə bu günədək lazımi qiymət verməyib. Biz soyqırımında iştirak edənlərin hamısının məsuliyyətə cəlb olunmasını tələb edirik.

1915-1920-ci illərdə ermənilər Anadoluda, o cümlədən İğdırda kütləvi cinayətlər törədiblər. Onlar təkcə bizim vilayətdə bir sıra kəndlərin, o cümlədən Hakmehmet, Oba və Gediklinin sakinlərini qətlə yetiriblər. İnsanlar diri-diri quyulara atılıb, təndirlərdə yandırılıb. 1915-1920-ci illərdə türkləri və azərbaycanlıları qətlə yetirənlərin nəvələri sonradan Xocalıda soyqırımı törədiblər".

Heydər Əliyev adına liseyin direktoru Yavuz Bağçı əmin edib ki, Türkiyə xalqı Xocalıda baş vermiş soyqırımı unutmayıb və unutmayacaq. "Ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər xüsusi qəddarlığı ilə seçilib. Hər bir ölkənin tarixində müharibələr olub. Ordular dinc insanlar, qadınlar və uşaqlarla deyil, qoşunlarla vuruşub. Silahsız mülki əhalinin qətliamı soyqırımı aktıdır. Ermənilərin qanlı cinayətləri və vandalizmi tarixə düşüb və heç vaxt unudulmamalıdır".

Tədbir çərçivəsində Xocalı soyqırımı mövzusunda ən yaxşı rəsm və şeirlərin müəlliflərinə mükafatlar təqdim olunub. Liseydə Xocalıda baş verən qanlı hadisələrin 33-cü ildönümü ilə bağlı fotostend də yaradılıb.

Onu da qeyd edək ki, Türk Dövlətləri Təşkilatının (TDT) "X" sosial şəbəkəsində Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Azərbaycana dəstək paylaşımı yer alıb.

Mətndə deyilir: "Bu gün biz Birinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi, müasir tarixin ən faciəli və vəhşi əməllərindən biri olan Xocalı soyqırımının 33-cü ildönümünü anırıq. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca qətlə yetirilib, 1275 nəfər girov götürülüb. Bu anım günündə bir daha Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir, Azərbaycan hökuməti və xalqı ilə həmrəy olduğumuzu vurğulayırıq".

## Böyük Britaniya

London İmperial Kollecində (Imperial College London - Imperial) Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Universitetdə fəaliyyət göstərən Azərbaycan Tələbə Cəmiyyətinin təşkil etdiyi Stories of Resilience and Justice: Forced Exile and Return" ("Əzmkarlıq və ədalət hekayələri: Məcburi köçürülmə və qayıdış") adlı tədbir London Universitet Kolleci, London Kral Kolleci, London İmperial Kolleci, London Şahzadə Meri və London Şəhər Universitetində fəaliyyət göstərən Azərbaycan tələbə cəmiyyətlərinin






dəstəyi ilə baş tutub.

Tədbir Xocalıda qətlə yetirilmiş yüzlərlə soydaşımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Xocalı soyqırımını əks etdirən qısametrajlı sənədli film nümayiş olunub.

"2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində London İmperial Kollecində təhsil alan Azərbaycan Tələbə Cəmiyyətinin idarə heyətinin üzvləri Aygün Həsənova və Aydan Poladova Xocalı soyqırımı haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Onlar hadisə şahidlərinin dilindən olan faktlardan və məcburi köçkün həyatının ağır izlərindən bəhs ediblər. Bildirilib ki, xaricdə təhsil alan gənclər ölkəmizə qarşı bu ədalətsizliyi dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün əllərindən gələni əsirgəməməlidir.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı indiyədək bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri olduğunu bildirib. Bu dəhşətli hadisəni törədənlərin hüquqi müstəvidə cəzalandırılmasının vacibliyini vurğulayıb. Dövlət başçımız, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun rəşadəti ilə ədalətin bərqərar olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edənlər xalqımıza qələbə sevinci yaşatdığına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Xocalıya səfərləri, sakinlərlə görüşləri xatırladılıb. Xocalının artıq dirçəldiyi vurğulanıb. İnsanların rahat həyat və fəaliyyəti üçün hərtərəfli şərait yaradıldığı, doğma yurdlarına qayıdan soydaşlarımızın təhlükəsiz yaşaması, onların məşğulluğunun təmini, rifah halının yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və bərpası istiqamətində mühüm işlər görüldüyü qeyd olunub.

Sonda Əməkdar artist, skripkaçı Ceyla Seyidova Xocalı qurbanlarının xatirəsinə musiqi parçaları ifa edib.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan dövlətinin diaspor, gənclər siyasətinə, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"na uyğun olaraq tədbirin təşkilinə kömək məqsədilə tələbələri müxtəlif təbliğat materialları ilə təmin edib.

## Finlandiya

Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində 26 fevral - Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Xocalı soyqırımı zamanı həlak olmuş günahsız insanların, qadın və uşaqların əziz xatirəsi dərin ehtiramla yad edilib.

Helsinki Azərbaycan Evinin sədri Ülviyyə Cabbarova "Xocalıya ədalət!" beynəlxalq şüarının həm milli, həm də beynəlxalq səviyyədə ədalət çağırışı olduğunu vurğulayıb. O, Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılmasının vacibliyini qeyd edərək bu istiqamətdə daha genişmiqyaslı işlərin aparılmasının zəruriliyini diqqətə çatdırıb.

Anım mərasimində Türkiyənin Finlandiyadakı Səfirliyinin nümayəndələri, eləcə də Finlandiyada yaşayan soydaşlarımız iştirak ediblər, Xocalı faciəsi haqqında ət-




raflı məlumat verilib, beynəlxalq ictimaiyyətin bu məsələyə daha çox diqqət yetirməsinin vacibliyi barədə fikirləri bölüşüblər.

Çıxışlarda Xocalının azad edilməsi zamanı Azərbaycan ordusunun qəhrəmanlığı, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Xocalıya səfərləri, sakinlərlə görüşlərinə diqqət çəkilib. Qeyd olunub ki, Xocalıda insanların rahat həyat və fəaliyyəti üçün hərtərəfli şərait yaradılır, doğma yurdlarına qayıdan soydaşlarımızın təhlükəsiz yaşaması, onların məşğulluğunun təmin edilməsi, rifah halının yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və bərpası istiqamətində mühüm işlər görülür.

Finlandiyada fəaliyyət göstərən "Azər-Türk Gənclər Təşkilatı"nın və Helsinki Azərbaycan Evinin fəal üzvü Mona Savaşovar 2021-ci ildə Finlandiyada Xocalı haqqında nəşr olunmuş məqaləsi barədə məlumat verib. O, məqalənin yerli ictimaiyyətə Xocalı həqiqətlərini çatdırmaq baxımından əhəmiyyətini vurğulayıb və gələcəkdə bu mövzuda daha genişmiqyaslı işlərin aparılmasının vacibliyini xatırladıb.

Qeyd edək ki, diaspor təşkilatlarının və fəallarının fəaliyyəti Azərbaycan reallıqlarının, tarixi həqiqətlərinin beynəlxalq ictimaiyyətə düzgün çatdırılması baxımından olduqca faydalıdır.

## Yunanıstan

"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Yunanıstanın Saloniki şəhərində Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar "Xocalıya ədalət!" adlı anım tədbiri keçirilib. Tədbirdə yerli ictimaiyyətin və Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

Tədbir Xocalı soyqırımı qurbanlarının, eləcə də Vətənin bütövlüyü uğrunda canından keçən qəhrəman oğulların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.




"QALA" Cəmiyyətinin sədri Rəşid Məmmədov çıxış edərək Xocalı faciəsi haqqında müfəssəl məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu siyasəti, Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın səyləri nəticəsində artıq dünyanın bir çox ölkəsində Xocalı soyqırımının tanındığını diqqətə çatdırıb. Soydaşlarımızı və ictimai təşkilatları beynəlxalq və regional tədbirlərdə, sosial şəbəkələrdə Azərbaycanın haqlı mövqeyini daha da səylə qorumağa çağırıb.

Tədbir zamanı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Xocalıya səfərlərinə, sakinlərlə görüşlərinə də diqqət çəkilib. Qeyd olunub ki, 31 il üzərində qara buludlar dolaşan Xocalı artıq dirçəlir. İnsanların rahat həyat və fəaliyyəti üçün hərtərəfli şərait yaradılır, doğma yurdlarına qayıdan soydaşlarımızın təhlükəsiz yaşaması, onların məşğulluğunun təmin edilməsi, rifah halının yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və bərpası istiqamətində mühüm işlər görülür.

Tədbirin davamında Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş videolar və fotosərgi nümayiş etdirilib.

## Qazaxıstan

Qazaxıstanın Almatı və Şimkənd şəhərlərində, Türküstan vilayətində Xocalı soyqırımı ilə bağlı anım tədbirləri keçirilib.

Almatı şəhərində fəaliyyət göstərən "Ata Yurd - Nomad" Respublika İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmiş tədbir Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Birliyin sədri Süleyman Əhmədov və Azərbaycanın Almatı şəhərindəki konsulu Anar Hüseynzadə çıxış edərək soyqırımı haqqında tədbir iştirakçılarına ətraflı məlumat veriblər. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Xocalıya səfərləri, sakinlərlə



görüşləri xatırladılıb. Xocalının artıq dirçəldiyi vurğulanıb. İnsanların rahat həyat və fəaliyyəti üçün hərtərəfli şərait yaradıldığı, doğma yurdlarına qayıdan soydaşlarımızın təhlükəsiz yaşaması, onların məşğulluğunun təmini, rifah halının yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və bərpası istiqamətində mühüm işlər görüldüyü



qeyd olunub.

Şimkənd şəhərində "Azərbaycan Mədəniyyət Mərkəzi" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən həftəsonu məktəbində Xocalı soyqırımına həsr olunmuş açıq dərs keçirilib. Məktəbin müəllimi Günel Abbasova şagirdlərə Xocalı faciəsinin tarixindən bəhs edib. Soyqırımının heç vaxt unudulmayacağını, Xocalının yenidən dirçəldiləcəyini söyləyib. Daha sonra Xocalı soyqırımına həsr edilmiş film nümayiş olunub.

Qazaxıstanın Türküstan vilayətində fəaliyyət göstərən "Qarabağ" Etnomədəni Birliyinin nəzdindəki Qarabağ məktəbində Xocalı soyqırımına həsr olunmuş açıq dərs keçirilib. Şagirdlərə Xocalı faciəsi haqqında ətraflı məlumat verilib və soyqırımına həsr olunmuş film nümayiş etdirilib. Hazırda Xocalıda Azərbaycan Bayrağının dalğalanmasının faciə qurbanlarının qanının yerdə qalmadığının göstəricisi olduğu diqqətə çatdırılıb. Daha sonra təşkilatın sədri Ramilə Mustafayevanın rəhbərliyi ilə Sayram rayonunda tədbir keçirilib, şəhidlərimizin ruhu ehtiramla yad edilib.

## ABŞ

Azərbaycan diaspor təşkilatları hər il ABŞ-ın nüfuzlu universitetlərində Xocalı soyqırımı və bu qətliamın acı nəticələri barədə konfranslar təşkil edir. Həmin görüşlər, elmi müzakirələr Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanınması və dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm bir addımdır.

ABŞ-ın İllinoys ştatında Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan "Keçmişlə Gələcək Arasında Körpü" adlı II Beynəlxalq Dialoq Konfransında xarici jurnalistlər, siyasi şərhçilər, tarixçilər iştirak edib.









Amerikalı jurnalist, siyasi şərhçi Kalvin Dark çıxışında bildirib ki: "Mən Azərbaycan və Ermənistan arasındakı uzunmüddətli münaqişə barədə 2023-cü ildə Qarabağa səfərim zamanı öyrəndim. Azərbaycanda olduğum müddətdə münaqişə, yerlə bir olmuş yaşayış məntəqələri və aparılan yenidənqurma işləri ilə tanış oldum. Məni ən çox təsirləndirən məqamlardan biri isə fiziki dağıntılarla yanaşı, psixoloji, mental və emosional yaraların sağalmasının daha uzun çəkməsidir. Buna görə də bu istiqamətdə aparılan işlər və insanların prosesə verdiyi töhfə çox vacibdir".

Qarabağ məsələsinin özü üçün bir həyat missiyasına çevrildiyini deyən braziliyalı jurnalist Fabiana Ceyhan işğaldan azad olunmuş rayonlara üç jurnalistdən ibarət qrupla getdiyini deyib: "Ərazidə çoxlu minalar olduğu üçün bu, müəyyən qədər riskli idi. O vaxt nə hava limanı, nə də nəqliyyat infrastrukturu mövcud idi, lakin biz öz gözlərimizlə görmək üçün risk etdik. O andan etibarən Qarabağ məsələsi mənim üçün bir həyat missiyasına çevrildi, çünki tarixi və coğrafi baxımdan Qarabağın Azərbaycana məxsus olduğunu gördük. Bu gün Xocalının səsi olmaq üçün buradayam. Xocalıda baş verən vəhşiliklər barədə öyrənəndə dərin sarsıntı keçirdim. Xocalı kiçik bir şəhər idi, orada hərbi qüvvələr yox idi. Ermənistanın günahsız insanlara hücumu heç nə ilə əsaslandırıla bilməz. Bu faciə unudulmamalıdır ki, bir daha təkrarlanmasın. Biz hamımız insanıq və Xocalı üçün sülh və ədalət naminə birləşməliyik".

"Tovuzdan Qarabağa" kitabının müəllifi, beynəlxalq jurnalist və analitik Malik Ayub Sumbal Xocalı hadisələrinə öz yaradıcılığında xüsusi yer ayırdığını vurğulayaraq qeyd edib ki, Xocalı soyqırımı beynəlxalq media tərəfindən qeydə alınmış ən dəhşətli qətliamlardan biridir: "Kitabımda Ermənistanın işğal siyasəti və Xocalı faciəsini geniş təhlil etmişəm. Bu, Qarabağ müharibəsindən sonra yayımlanan ilk dərin analizdir. Xocalıya ayrıca bir fəsil həsr etmişəm, çünki bu, nifrət zəminində törədilmiş kütləvi qətldir. Günahsız insanların qətli cəzasız qala bilməz, cinayətkarlar beynəlxalq hüquq çərçivəsində cavab verməlidir. Xocalı faciəsi etnik təmizləmənin ən dəhşətli nümunələrindən biridir. 600-dən çox insan, o cümlədən qadın və uşaqlar bir gecədə qətlə yetirildi. Bir çox beynəlxalq təşkilatlar bunu pisləyib və ədalət tələb edir. Azərbaycan xalqı isə hər il bu faciəni anaraq günahsız qurbanların xatirəsini yaşadır".

ABŞ-ın Milli Müdafiə Universitetinin dosenti Stefan Bruks çıxış edərək Xocalı həqiqətlərinin heç zaman unudulmamalı olduğunu vurğulayıb: "Xocalı soyqırımı barədə oxuyanda dəhşətə gəldim. Ən böyük ironiya isə Ermənistanın bunu inkar etməsidir. Xocalı faciəsi müasir dünyanın ən böyük vəhşiliklərindən biridir. Burada məqsəd yalnız düşməni məğlub etmək deyil, onu tamamilə məhv etmək olub. Mülki əhalini hədəf almaq müharibə cinayətidir və bu faciə heç vaxt unudulmamalıdır. Əgər bu faciə erməni xalqının başına gəlsəydi, onlar susmazdılar. Burada əsas problem insanlıq, mərhəmət və anlayış çatışmazlığıdır".

Xatırladaq ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan diaspor təşkilatları bu günə qədər Xocalı soyqırımının tanıdılması istiqamətində onlarla ölkənin nüfuzlu ali məktəblərində, elmi mərkəzlərində Azərbaycanla bağlı konfranslar təşkil edib.

* * *

Virciniya ştatının Feyrfaks şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb.

ABŞ-ın Virciniya ştatındakı Azərbaycan Evinin təşkilatçılığı ilə "Cinema Arts Theatre" kinoteatrında keçirilən tədbirdə Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim, Türkiyə və Azərbaycanın ABŞ-dakı Səfirliyinin əməkdaşları, Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi, yerli ictimaiyyətin, eləcə də Azərbaycan və türk diasporlarının təmsilçiləri iştirak ediblər.




Anım tədbirində Xocalı soyqırımının dəhşətlərini əks etdirən fotosərgi nümayiş olunub. Eyni zamanda Milli Qəhrəman Natiq Qasımov haqqında olan "Oğul" sənədli filmi, 20 Yanvar hadisələri və bu hadisələr zamanı şücaət göstərmiş dənizçilərimiz barədə çəkilən "20 Yanvarda doğulanlar" adlı bədii-sənədli filmi göstərilib.

Tədbirdə Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, soyqırımını törədənlərin ifşa olunması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyevanın gördüyü işlərdən danışılıb. Bildirilib ki, dünya ölkələri tərəfindən bu qətlia-



ma beynəlxalq səviyyədə ədalətli hüquqi-siyasi qiymət verilməli və bu cinayətin təşkilatçıları cəzalandırılmalıdır.

Qeyd edək ki, 5 günlük Xocalı həftəsi çərçivəsində tədbir iştirakçılarına soyqırımı faktlarını əks etdirən məlumatlandırıcı flayerlər paylanılıb.

"Respublika".